*14 Fevral Azərbaycan televiziyasının yaranma günüdür*

# Sehrli qutunun cazibəsi

**Ana televiziyamızın "beşiyi başında" dayananlardan bir olmuş veteran rabitəçi İsmət Gözəlovla görüşüm bir qədər kövrək notlarla başladı. Xatirə cığırı ilə gəzə-gəzə ötən illərdən danışdı. 1956-cı il fevralın 14-də gənc rabitəçi kimi Ötürücü Radio Mərkəzində mühəndis vəzifəsini tutduğunu və həmin unudulmaz tarixi hadisənin bilavasitə iştirakçısı olmasından məmnunluğunu bildirdi.**



– Desəm ki, az qala əllərimiz əsirdi, inanın. Bir müddət əvvəldən keçirdiyimiz sınaqlar uğurlu alınsa da, bərk həyəcan keçirirdik. Hazırlıq işlərini tamamlayıb saat 18-də ilk verilişə başladıq. Xoşbəxtlikdən, hər şey yaxşı alındı. Dar bir otaq-studiyada yanan işıq respublikamızın hər tərəfinə şölə saçdı. Studiyanın direktoru Ənvər Əlibəyli və onun müavini Hacı Hüseynov sevinc hisslərini gizlətmirdilər. Operator kimi kamera arxasında mühəndis Sərvər Quliyev, rejissor pultu arxasında isə Kamil Rüstəmbəyov dayanmışdı...

Möcüzə idi, danışan radio həm də göstərirdi. Tək-tük evlərdə olan möcüzəli qutunun başına qonum-qonşu da yığılmışdı, hamı heyrətlə gözünü ekrana zilləmişdi. Bakının "Mehdi Hüseyn küçəsi, 1" ünvanından pərvazlanan televiziya könülləri riqqətə gətirmişdi. Əvvəlcə ekranda sınaq cədvəli göstərildi, sonra Əməkdar artist Nəcibə Məlikova efirdə məşhur "Diqqət, göstərir Bakı!" sözlərini səsləndirdi, ölkədə müntəzəm teleyayımın başlanması münasibətilə tamaşaçıları təbrik etdi. Daha sonra tamaşaçılar balaca qutu boyda olan ekranlardan "Bəxtiyar" filminə baxa bildilər.

– Həmin vaxtadək teleqüllənin inşası sona yetmədiyi üçün studiya antenni 44 metrlik adi neft buruğunda quraşdırılmışdı, – deyə müsahibim davam etdi. – Səs siqnallarının ötürülməsi ilə bağlı müəyyən nasazlıq meydana çıxsa da, bu, böyük tarixi hadisəyə kölgə sala bilmədi. O gün Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov Moskvada idi. Buna görə də bizi MK-nın katibi Məmməd İskəndərov təbrik elədi.



Qeyd edək ki, İsmət Gözəlov 1953-cü ildən 2002-ci ilədək telerabitə sahəsində müxtəlif vəzifələrdə işləyib. Qabiliyyətinə görə SSRİ Rabitə Nazirliyinin "Fəxri radist"i adına layiq görülüb. Daha sonra neçə-neçə medalla təltif olunub. 2008-ci ildə ona "Şöhrət" ordeni verilib. Telestudiyanın rəhbərləri olmuş Ənvər Əlibəyli, Teymur Əliyev, Qurban Yusifzadə, Elşad Quliyev və bu sahənin ilk cığırdaşları olan mühəndis-texniki heyətlə Azərbaycan teleməkanının zənginləşməsinə xidmət göstərməsindən məmnundur.

O, televiziyada çalışdığı ilk dövrlərdə burada ailə səadətinə də qovuşduğunu dilə gətirdi. Gənc diktor Tamara Gözəlova ilə evlənib və bundan sonra uzun illər fevralın 14-ü onlar üçün ikiqat əziz olub. Çünki elə Tamara xanımın da doğum günü məhz fevralın 14-nə təsadüf edirdi.

Yeri gəlmişkən, Azərbaycanın ana televiziyasının ilk diktorları sırasında Gültəkin Cabbarlı, Nailə Mehcibəyova, Sevda Qənizadə, Sara Manafova, Rəna Nəsirova, Rəxşan Aslanova, Sima Xasıyeva və Nizami Məmmədov olubar. Görkəmli sənət adamları, şair və yazıçılar da orada işləməklə televiziyanın həyatımızın bir hissəsinə çevrilməsini təmin ediblər. Tədricən televiziya həm texniki, həm də bədii baxımdan təkmilləşib, ağ-qara təsvirli mavi ekrandan rəngli ekrana keçilib.

...1990-cı il yanvarın 19-da saat 19:26-da Azərbaycan televiziyasının enerji bloku partladıldı. Yayımı yalnız yanvarın 28-də bərpa etmək mümkün oldu. Qara kostyumda və qalstuksuz efirə çıxan diktor Rafiq Hüseynov 138 dinc sakinin qətlə yetirilməsiylə əlaqədar Azərbaycan xalqına başsağlığı verdi. Həmin 9 günlük "fasilə" istisna olmaqla, televiziya 67 ildir ki, evlərimizin



möhtərəm sakini, ailələrimizin sevimli üzvüdür. Artıq illərdir ki, Azərbaycanda digər peşəkar televiziya kanalları da fəaliyyət göstərir. 2005-ci ildən 24 saatlıq fasiləsiz yayıma keçmiş Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti isə milli efir məkanımızın flaqmanı missiyasını layiqincə davam etdirir.

**P.S:** Dünən həmsöhbətim olan İsmət Gözəlov 1956-cı il fevralın 14-də ana televiziyamızın işə salınmasının indi həyatda olan yeganə iştirakçısıdır. Mən sonradan orada 20 ilədək çalışmış biri kimi keçmiş həmkarlarımdan Aydın Əliyev, Fikrət Adıgözəlli və başqalarına da zəng vuraraq onların şəxsində bütün televiziya işçilərinə təbriklərimi çatdıraraq dedim:

– Uğurlarınız bol olsun!

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***